**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin bəzi məsələləri haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

«Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşlarına Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin mərkəzi aparatının işçilərinin əməyinin ödənilməsi şərtləri və forması şamil edilsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Maliyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin işçilərinin vəzifə maaşlarını tabeliyində olduqları nazirliyin mərkəzi aparatının müvafiq vəzifə maaşları səviyyəsində təsdiq etsin.

3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşlarına ixtisas dərəcələrinə görə əlavələr aşağıdakı kimi müəyyən edilsin:

yüksək dərəcəli ekspert —aylıq əmək haqqının 20 faizi məbləğində;
birinci dərəcəli ekspert — aylıq əmək haqqının 15 faizi məbləğində;
ikinci dərəcəli ekspert — aylıq əmək haqqının 10 faizi məbləğində;

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**
**Bakı şəhəri, 23 may 2001-ci il**
**№ 99**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Naxçıvan Muxtar Respublikasının mövcud coğrafi şəraitini nəzərə alaraq, bu regionun məhkəmə və istintaq orqanlarının ehtiyaclarını ödəmək və ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının yaradılması haqqında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təklifi qəbul edilsin.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin təkliflərini nəzərə almaqla Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialının ştat vahidləri sayının və strukturunun, əməkdaşların əməyinin ödənilməsi şərtlərinin və formalarının müəyyən edilməsini, habelə maliyyələşdirilməsi və fəaliyyətinin təşkili üçün zəruri tədbirlərin görülməsini və bu qərardan irəli gələn digər məsələlərin həll olunmasını təmin etsin.
3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin Naxçıvan Filialı tərəfindən aparılacaq məhkəmə ekspertizasının ayn-ayrı növlərinin müəyyən olunmasını təmin etsin.
4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**
**Bakı şəhəri, 5 oktyabr 2005-ci il**
**N 180**

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**
**Ə M R**

**28 dekabr 2007-ci il** **№ 44-T**

**Məhkəmə ekspertizası mərkəzinin əsasnaməsinin, strukturunun və ştat vahidlərinin bölgüsünün təsdiq edilməsi barədə**

Son illər ölkəmizdə məhkəmə ekspertizası fəaliyyətinin müasir tələblərə uyğun qurulması üzrə kompleks tədbirlər görülmüş, mütərəqqi qanunvericilik aktları qəbul edilmiş, o cümlədən dövlət başçısının 30.06.2001-ci il tarixli Fərmanı ilə bütün növ məhkəmə (qeyri-tibb) ekspertizalarının yalnız Ədliyyə Nazirliyində aparılması müəyyən olunmuşdur.

Bununla əlaqədar Ədliyyə Nazirliyinin üzərinə düşən mühüm vəzifələrin icrasının təşkili məsələləri kollegiya iclasında müzakirə edilmiş, Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutunun iş üsul və vasitələrinin köklü surətdə yaxşılaşdırılması üçün əhatəli tədbirlər müəyyən edən xüsusi əmr imzalanmışdır. İşin daha səmərəli qurulmasını, müvafiq əməkdaşların attestasiyadan keçirilməsini, onlara ixtisas dərəcələrinin verilməsini təmin etmək məqsədilə məhkəmə ekspertizalarının aparılmasının təşkili haqqında təlimat və ekspertlərə ixtisas dərəcələrinin verilməsi qaydası təsdiq olunmuş, ekspert ixtisas komissiyasının və Elmi Şuranın yeni tərkibi formalaşdırılmışdır.

Ekspert araşdırmalarının operativliyinin və keyfiyyətinin təmin edilməsi üçün növbətçilik təşkil olunmuş, ekspertiza prosesində elmi-texniki tərəqqinin müasir nailiyyətlərindən istifadə edilməsinə diqqət artırılaraq tədqiqat üsulları və metodları təkmilləşdirilmiş, məhkəmə-kompüter-texniki, əqli mülkiyyət obyektlərinin, məhkəmə-kontrafakt və digər yeni növ ekspertizaların aparılmasına başlanılmışdır. Eyni zamanda burada tətbiq olunan yeni imkanlar barədə məhkəmə-istintaq orqanlarının mütəmadi olaraq məlumatlandırılması həyata keçirilmiş, onlara metodiki yardımın göstərilməsi məqsədilə məhkəmə-fonoskopik ekspertizasına dair vəsait, məhkəmə-linqvistik ekspertizası terminlərinin lüğəti, «Korrupsiya ilə mübarizə: cinayət-hüquqi və kriminoloji aspektlər» adlı monoqrafiya hazırlanmışdır.

İnstitutun maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə zəruri tədbirlər həyata keçirilmiş, qurumun saxlanılması üçün dövlət büdcəsindən ayrılan vəsaitin məbləği ilbəil artırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin «Ədliyyə orqanlarının inkişafı haqqında» Fərmanına müvafiq olaraq Elmi-Tədqiqat Məhkəmə Ekspertizası, Kriminalistika və Kriminologiya Problemləri İnstitutu nazirliyin yeni strukturunda Məhkəmə ekspertizası mərkəzi adlandırılmış və ona baş idarə səlahiyyəti verilmişdir.

İş yükünün artması nəzərə alınaraq nazirlik üzrə 10.01.2007-ci il tarixli əmrlə Mərkəzin ştat sayı 190-a çatdırılmışdır.

Məhkəmə ekspertizası mərkəzinin fəaliyyətini təkmilləşdirilərək yeni qanunvericiliyə uyğun təşkil etmək məqsədilə onun əsasnamə layihəsi, strukturu və ştat bölgüsünə dair hazırlanmış təkliflər nazirliyin kollegiyasında müzakirə edilərək təkmilləşdirilmişdir.

Göstərilənlərə əsasən və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin 16.3. və 16.4-cü bəndlərini rəhbər tutaraq,

ƏMR EDİRƏM:

1. Məhkəmə ekspertizası mərkəzinin əsasnaməsi, strukturu və ştatlarının bölgüsü təsdiq edilsin (əlavə olunur) və 10.01.2008-ci il tarixdən tətbiq olunsun.

2. Məhkəmə ekspertizası mərkəzinin rəhbərliyi nazirliyin müvafiq qurumları ilə birgə:

2.1. əsasnamənin aidiyyəti əməkdaşlar tərəfindən dərindən öyrənilməsini və onun tələblərinə dönmədən əməl olunmasını, habelə bu sənədə uyğun olaraq işçilər arasında iş bölgüsünün düzgün aparılmasını təmin etsin;

2.2. məhkəmə ekspertizalarının keyfiyyətli və hərtərəfli aparılmasını təmin etsin, məhkəmə ekspertizası, kriminalistika, kriminologiya və hüququn digər aidiyyəti sahələrində aparılan elmi tədqiqat işlərinin səmərəliliyinin artırılması, məhkəmə və hüquq mühafizə orqanlarına metodiki yardımın müasir tələblərə uyğun göstərilməsi üzrə zəruri tədbirlər görsün, cinayətlərin səbəblərinin, habelə onlara kömək etmiş şəraitin aşkar olunması və qarşısının alınması ilə bağlı ekspert profilaktikasını gücləndirsin;

2.3. məhkəmə ekspertizası sahəsində beynəlxalq əlaqələrin daha da genişləndirilməsi üzrə tədbirlər görsün, qabaqcıl təcrübəni mütəmadi olaraq öyrənsin, bu təcrübənin və elmi-texniki nailiyyətlərin tətbiqinə xüsusi diqqət yetirsin;

2.4. məhkəmə ekspertizası mərkəzində vakant olan ştat vahidlərinin zəruri peşə hazırlığına malik kadrlarla tam komplektləşdirilməsi üzrə tədbirlər görsün, məhkəmə ekspertlərinin hazırlanması, onların peşə və hüquqi biliklərinin artırılması işinin səmərəliliyini yüksəltsin;

2.5. mərkəzin maddi-texniki bazasının gücləndirilməsi, əməkdaşların iş şəraitinin yaxşılaşdırılması məqsədilə zəruri tədbirlər görsün, yerli qurumların yaradılmasına dair təhlillər aparsın və ehtiyac olduqda müvafiq təkliflər versin.

3. Əmrin icrasına nəzarət ədliyyə nazirinin müavini V.Zahirova həvalə edilsin.

4. Əmr bütün ədliyyə orqanlarına göndərilsin.

Əsas: Ədliyyə Nazirliyi kollegiyasının 16.11.2007-ci il tarixli qərarı

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**ƏMR**

**20 iyun 2012-ci il** **№11-T**

**Məhkəmə ekspertizası mərkəzi
Ekspert-ixtisas komissiyasının
tərkibinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.05.2012-ci il tarixli 93 nömrəli qərarı ilə "Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və onlara ixtisas dərəcəsinin verilməsi Qaydası"nın təsdiq edilməsi ilə bağlı Məhkəmə ekspertizası mərkəzinin Ekspert-ixtisas komissiyasının tərkibinin yenidən müəyyən edilməsi zərurəti yaranmışdır.

Bununla əlaqədar Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin 16.7-ci və Məhkəmə ekspertizası mərkəzi haqqında Əsasnamənin 18-ci bəndlərini rəhbər tutaraq,

ƏMR EDİRƏM:

1. Məhkəmə ekspertizası mərkəzinin ekspertlərinə ixtisas dərəcələrinin verilməsi Qaydası" nın təsdiq edilməsi barədə Ədliyyə Nazirliyi üzrə 22.04.2012-ci il tarixli 13-T nömrəli əmrin birinci abzası ləğv edilsin.

2. Məhkəmə ekspertizası mərkəzinin Ekspert-ixtisas komissiyasının yeni tərkibi təsdiq edilsin (əlavə olunur).

3. «Məhkəmə ekspertizası mərkəzinin Ekspert-ixtisas komissiyasının tərkibinin təsdiq edilməsi barədə» Ədliyyə Nazirliyi üzrə 12.11.2008-ci il tarixli 23-T nömrəli əmrin 1-ci bəqndi ləğv edilsin.

4. Ədliyyə Nazirliyi üzrə 14.06.2000-ci il tarixli 93ş/h nömrəli əmrlə təsdiq edilmiş «Məhkəmə ekspertizası mərkəzində məhkəmə eksperti ixtisasının verilməsi haqqında» Əsasnamənin təkmilləşdirilməsi ilə bağlı təkliflər verilsin (F.Cavadov, A.Əliyev).

5. Əmr aidiyyəti ədliyyə orqanlarına göndərilsin.

Əsas: Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.05.2012-ci il tarixli 93 nömrəli qərarı, Məhkəmə ekspertizası mərkəzinin təqdimatı

**Azərbaycan Respublikasının ədliyyə naziri
I dərəcəli dövlət ədliyyə müşaviri
Fikrət Məmmədov**

Azərbaycan Respublikası ədliyyə nazirinin 20.06.2012-ci il tarixli 11-T nömrəli əmrinə Əlavə

Azərbaycan Respublikasi Ədliyyə Nazirliyinin
Məhkəmə ekspertizası mərkəzi Ekspert-ixtisas
komissiyasının tərkibi

| | |
|---|---|
| Komissiyanın sədri: | |
| Fuad Musa oğlu Cavadov<br>hüquq elmləri doktoru | Mərkəzin rəisi |
| Komissiyanın üzvləri: | |
| Hamlet Əli oğlu Musayev<br>hüquq üzrə fəlsəfə doktoru | Mərkəzin rəis müavini |
| Azad Süleyman oğlu Abdinbəyov<br>biologiya üzrə fəlsəfə doktoru | Mərkəzin rəis müavini |
| Hümmət Telman oğlu Vəliyev | Mərkəzin Elmi-tədqiqat və metodiki iş şöbəsinin rəisi |
| Əli Sənan oğlu Məlikov<br>hüquq üzrə fəlsəfə doktoru | Mərkəzin Sənədlərin texniki ekspertizası şöbəsinin rəisi |
| Şahismayıl Şıxəli oğlu Şıxəliyev<br>Həmkarlar İttifaqı Komitəsinin sədri | Mərkəzin Fiziki-kimyəvi ekspertizalar şöbəsinin rəisi, Mərkəzin |

| | |
|---|---|
| Fuad Cəbrayıl oğlu Dadaşov<br>texnika üzrə fəlsəfə doktoru | Mərkəzin Yol-nəqliyyat hadisələrinin ekspertizaları şöbəsinin rəisi |
| Qalib Hüseyn oğlu Həsənov<br>iqtisad üzrə fəlsəfə doktoru | Mərkəzin İqtisad ekspertizaları şöbəsinin rəisi |
| Məhəmməd Nəsrəddin oğlu Məmmədov<br>hüquq üzrə fəlsəfə doktoru | Mərkəzin Mühəndis-texniki ekspertizalar şöbəsinin rəisi |
| Sabir Fəttah oğlu Şabanov<br>psixologiya üzrə fəlsəfə doktoru | Mərkəzin Psixoloji ekspertiza şöbəsinin rəisi |
| Elçin Məhəmməd oğlu İsmayılov<br>hüquq üzrə fəlsəfə doktoru | Mərkəzin Əlyazmalar və səslərin ekspertizaları şöbəsinin rəis müavini |
| Cabir Sirac oğlu Əhmədov<br>hüquq üzrə fəlsəfə doktoru | Mərkəzin Ballistik və trasoloji ekspertizalar şöbəsinin baş eksperti |
| Bayram Böyükkişi oğlu Bayramov | Mərkəzin Kadrlar bölməsinin aparıcı məsləhətçisi, bölmə rəisi vəzifəsini icra edən |

**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Fikrət Məmmədov**

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**ƏMR**

**22 avqust 2012-ci il** **№ 13-T**

**Məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər barədə**

Ölkəmizdə ədliyyə sisteminin inkişafı üzrə görülən tədbirlər çərçivəsində son dövrlər Məhkəmə ekspertizası mərkəzinin fəaliyyət imkanları xeyli genişlənmiş, o cümlədən əldə edilən müasir kriminalistik avadanlıqlar hesabına yeni növ ekspertizaların aparılması mümkün olmuş, tədqiqat laboratoriyalarının sayı xeyli artırılmış, ekspert araşdırmalarının operativliyini təmin etmək məqsədi ilə Naxçıvan Muxtar Respublikasında Mərkəzin Naxçıvan Filialı yaradılmışdır.

Bütün bunlar ekspert tədqiqatlarının keyfiyyətinin yüksəldilməsinə, onların aparılması müddətlərinin qısalmasına səbəb olmuşdur.

Bununla belə paytaxtdan kənarda fəaliyyət göstərən bir sıra məhkəmə və hüquq-mühafizə orqanlarının Mərkəzə əlçatımlığının lazımi səviyyədə olmaması onların işini çətinləşdirir, tədqiqat obyektlərinin ekspertizasının keçirilməsində ləngitmələrə gətirib çıxarır, ibtidai araşdırmanın və ədalət mühakiməsinin səmərəsinə mənfi təsir göstərir.

Eyni zamanda, Mərkəzə müvafiq qurumların müraciətlərinin sayı ilbəil artmaqdadır.

Qeyd olunan məsələlərin həlli üçün Mərkəzdə əlavə ştatların təsis edilməsinə və artıq özünü doğrultmuş Naxçıvan filialının təcrübəsinə uyğun olaraq regionlarda yerli bölmələrin yaradılmasına zərurət yaranmışdır.

Həmçinin, mərkəzin Avropa Məhkəmə Ekspertizası İnstitutları Şəbəkəsinə (ENFSİ) üzv qəbul olunması onun beynəlxalq akkreditasiyadan keçirilməsi məsələsini aktuallaşdırır və orada keyfiyyət təminatı işinin təşkilini şərtləndirir.

Göstərilənlərə əsasən, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamənin 16.4-cü bəndini rəhbər tutaraq,

ƏMR EDİRƏM:

1. Məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi və ştat vahidlərindən daha səmərəli istifadə olunması məqsədi ilə Ədliyyə Nazirliyi üzrə 28.12.2007-ci il tarixli 44-T nömrəli əmrlə təsdiq edilmiş Məhkəmə ekspertizası mərkəzinin strukturu və ştat bölgüsündə dəyişikliklər edilərək ədliyyə orqanları üzrə (12 ş.v.) və Mərkəzin (10 ş.v.) ehtiyatında olan ştatların hesabına:

1.1. Məhkəmə ekspertizası mərkəzinin "Keyfiyyət təminatı"bölməsi, Gəncə, Şirvan şəhərlərində və Şəki rayonunda yerli regional bölmələri yaradılsın, onların strukturu və ştat bölgüsü təsdiq edilsin (əlavə olunur).

1.2 Mərkəzin ərazi aidiyyətinə Bakı və Sumqayıt, onun regional bölmələrinin ərazi aidiyyətinə isə müvafiq olaraq, Gəncə, Şirvan və Şəki apellyasiya məhkəmələrinin yurisdiksiyasına daxil olan şəhər və rayonlar aid edilsin.

1.3. Mərkəzin yol-nəqliyyat hadisələrinin ekspertizaları və Mühəndis-texniki ekspertizalar şöbələrinin hər birində 1, İqtisad ekspertizaları şöbəsində 2 ekspert ştat vahidləri təsis olunsun (cəmi 4 ştat vahidi).

2. Bununla əlaqədar Məhkəmə ekspertizası mərkəzi üzrə ştat sayı 202 vahid müəyyən edilsin.

3. Yeni təsis edilmiş ştat vahidlərinin kadrlarla komplektləşdirilməsi təmin edilsin (F.Cavadov).

4. Məhkəmə ekspertizası mərkəzi haqqında Əsasnaməyə aidiyyəti dəyişikliklərin edilməsinə dair təkliflər verilsin (F.Cavadov, S.Kazımov, A.Əliyev).

5. Yeni yaradılan qurumlar təşkilati-texniki vasitələrlə təmin olunsun və bu əmrin icrasından irəli gələn digər məsələlər həll edilsin (F.Cavadov, A.Muradov).

6. Əmr aidiyyəti ədliyyə orqanlarına və məhkəmələrə göndərilsin.

Əsas: *Məhkəmə ekspertizası mərkəzinin təqdimatı, Təşkilat-nəzarət baş və Kadrlar idarələrinin arayışı*

**Azərbaycan Respublikasının ədliyyə naziri, I dərəcəli dövlət ədliyyə müşaviri**
**Fikrət Məmmədov**